# Azərbaycan Prezidentinin sülh siyasəti yüksək mükafatlara layiqdir

**Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi Azərbaycanın Cənubi Qafqazda sülhün təmin olunmasındakı rolunun beynəlxalq səviyyədə tanınması ilə yanaşı, örnək ölkə kimi tarixə düşdüyünü göstərir. Azərbaycan son 80 ildə tam və mütləq qələbə qazanan yeganə ölkə olub. Ölkəmiz beynəlxalq hüquqazidd olan işğala öz daxili potensialı hesabına son qoyub, hərbi və diplomatik çeviklik sayəsində regionda status-kvonu dəyişib.**



Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında bildirib ki, Prezident İlham Əliyev tarixi zəfərdən dərhal sonra müəllifi olduğu sülh gündəliyini irəli sürüb. 10 noyabr 2020-ci il üçtərəfli Bəyanatı kommunikasiyaların açılmasını ehtiva etsə də, qarşı tərəf sülhdə manipulyasiyalarla vaxtı uzadaraq, konstruktiv addım atmayıb. Ötən il avqustun 8-də Ağ Evdə Azərbaycan ilə Ermənistan arasında əldə olunan razılaşmalar üç onillikdən çox davam edən gərginlikdən sonra regiona sülh, sabitlik və rifah gətirməsi məqsədi daşıyır. Bu irəliləyiş Cənubi Qafqazda yeni bir dövr açdı. Yekun müqavilə imzalanmasa belə, paralel olaraq sülhdə əməli addımlar atılır. "Konkret iqtisadi addımlar sülh sazişinin artıq praktikada reallaşmağa başladığını göstərir. Azərbaycan Ermənistanın kommersiya yükləri üçün tranzit yolunu açaraq, Qazaxıstan və Rusiyadan gələn taxılın Gürcüstan vasitəsilə Ermənistana çatdırılmasına imkan yaradıb. Ermənistan isə öz növbəsində Türkiyə malları üçün yol açıb. Tərəflər, o cümlədən Azərbaycan neft məhsullarının Ermənistana ixracı da daxil olmaqla, ticarətə başlayıblar. İki ölkə müstəqillik əldə etdikdən sonra heç vaxt birbaşa ikitərəfli ticarət aparmayıb. Bu gün baş verən proses sıfırdan, tamamilə yeni bir iqtisadi münasibətlər sisteminin formalaşdırılmasıdır", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, normallaşma prosesi təkcə dövlətlərarası diplomatiya ilə məhdudlaşmır: "İctimai dəstək, açıq ünsiyyət və etimadın qurulması davamlı sülhün əsas komponentləri kimi getdikcə daha çox qəbul olunur. İki ölkə arasında vətəndaş cəmiyyəti mübadilələri həyata keçirilib. Bu mübadilələr dialoqu təşviq edir və siyasi razılaşmaların cəmiyyət daxilində möhkəmlənməsinə kömək edir. Bu addımlar da regionda iqtisadi inteqrasiyaya töhfə verir".

Zəngəzur dəhlizinin (TRIPP) regional transformasiyanın strateji elementi olaraq qaldığını vurğulayan Pərvanə Vəliyeva deyib ki, istismara verildikdən sonra bu dəhliz "Şərq-Qərb" marşrutları boyunca yeni logistika imkanları yaradacaq, Avropa ilə Asiyanı birləşdirən Orta dəhliz daxilində strateji alternativ rolunu oynayacaq, Avrasiya məkanında yüklərin daha sürətli və səmərəli daşınmasını təmin edəcək. Tranzit ölkələr kimi həm Azərbaycan, həm də Ermənistan bundan əhəmiyyətli dərəcədə fayda götürə biləcəklər.

Deputatın fikrincə, daha geniş normallaşmanın nəticəsi olaraq infrastruktur sərmayələri, tranzit enerji dəhlizləri, rəqəmsal bağlantılar, dəmir yolu və avtomobil yollarının inteqrasiyası və digər sahələrdə də layihələr icra oluna bilər: "ABŞ Prezidenti Donald Tramp Sülh Şurası adlı beynəlxalq təşkilat yaratmaq qərarını elan edərək, Azərbaycan Respublikasını təşkilata təsisçi üzv dövlət olmağa dəvət edib. Bundan öncə, məhdud sayda dövlət və hökumət başçısının qatıldığı Yaxın Şərq Sülh sammitində dövlət başçımız, məhz ABŞ Prezidentinin şəxsi dəvəti əsasında iştirak edib. Cənubi Qafqaza sülhün gətirilməsi, Azərbaycanın nüfuzunu dünyada qaldırmaqla yanaşı, ölkəmizə ehtiyacın artdığını da şərtləndirir. Müxtəlif ölkələrin liderləri Prezidentimizin tövsiyə və fikirlərini eşitmək üçün ikitərəfli görüşlər keçirirlər. Onlar etiraf edirlər ki, belə həssas bir regionda Azərbaycan ideal xarici siyasət kursu həyata keçirir və öz gündəliyini irəlilədir".

Pərvanə Vəliyeva bildirib ki, Cənubi Qafqaz kimi həssas regionda onillliklərlə davam edən münaqişədən sonra sülhə nail olan Azərbaycan artıq beynəlxalq arenada "ən yaxşı nümunə"yə çevrilib və bu siyasət yüksək mükafatlara layiqdir. Bu ilk növbədə Prezident İlham Əliyevin qətiyyətinin və prinsipiallığının, həmçinin ölkəmizdə olan güclü xalq-iqtidar birliyinin, dövlət başçısına inamın məntiqi nəticəsidir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2026.- 22 yanvar (№12).- S.11.